# Əhalinin sosial müdafiəsinin təminatı dövlət siyasətinin əsas istiqamətlərindəndir

## Tarif Şurasının "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə" qərarı ölkə əhalisinin sağlamlığının qorunmasına xidmət edən addımlardandır



**Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında daim bu fikir öz əksini tapır ki, iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanmalıdır. İqtisadi göstəricilərin təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapması bir daha bu reallığı ortaya qoyur ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır. Əmək haqlarının, pensiyaların artması, aztəminatlı ailələrə ünvanlı sosial yardımların verilməsi və s. kimi addımlar deyilənlərin təsdiqidir.**

Bir faktı da qeyd edək ki, konkret Dövlət Proqramlarının icrası ölkənin hərtərəfli inkişafında, eyni zamanda, qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaqda əsas rolunu oynayır. Bu baxımdan qeyd etmək olar ki, 2003-cü ildə keçirilən andiçmə mərasimində dövlətimizin başçısı İlham Əliyev yoxsulluq kimi sosial bəlanın aradan qaldırılmasını, əmək haqlarının ildə ən azı iki dəfə artırılmasını qarşıya mühüm vəzifə kimi qoymuşdur. Bu gün Dövlət Proqamlarının uğurlu icrası nəticəsində Azərbaycanda yoxsulluq və işsizlik 5 faiz səviyyəsindədir. "Sosial sahədə bütün proqramlar icra edilir" söyləyən cənab İlham Əliyev bu reallığı da diqqətə çatdırır ki, baxmayaraq, gəlirlərimiz azalıb, bu, təbiidir: "Biz büdcəni qəbul edəndə neftin qiymətini 90 dollardan hesablamışıq, əslində indi 60 dollar səviyyəsindədir. Bir neçə ay bundan əvvəl daha da aşağı səviyyədə idi, əlli dollardan aşağı düşmüşdü. Ancaq bütün sosial proqramlar vaxtında icra edilir və bu da siyasətimizin əlamətidir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik."

Müqayisəli təhlil aparsaq, görərik ki, bu gün ünvanlı sosial yardım alan insanların sayı təxminən 20 faiz azalıb. Nəyin hesabına? Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, ona görə yox ki, kiminsə yardımı kəsilib. Ona görə ki, yardıma ehtiyacı olmayan artıq bunu almır. 112 min ailə, 490 min insan bu yardımı alır və hər ailəyə orta hesabla təxminən hər ay 150 manat pul verilir. Budur, dövlətimizin sosial siyasəti və yanaşması.

İnsanların yaxşı yaşayışı üçün zəruri olan bütün addımlar atılır. Sosial infrastruktur yaradılır. Məktəblər, xəstəxanalar tikilir. Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirilən rəqəmlərə diqqət yetirsək, hazırda təxminən 20-dən çox məktəb, 30-dan çox tibb müəssisəsi təmir olunur, tikilir. Proses davamlı xarakter daşıyır. Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin iclasında bildirmişdir: "Növbəti illərdə çalışmalıyıq ki, bir dənə də təmirsiz məktəb olmasın və hər bir yerdə, hər bir kənddə insanlar normal tibbi xidmətə malik olsunlar."

Azərbaycanın bu gün özünü dünyaya sosial dövlət kimi təqdim etməsi təbii ki, uğurlu sosial-iqtisadi islahatların nəticəsidir. Bu, bir daha onu göstərir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilər. Təbii ki, bu inkişaf, tərəqqi dövlətimizin düşünülmüş və məqsədyönlu siyasətinə əsaslanır. Yazının əvvəlində də qeyd etdiyimiz kimi, konkret Dövlət Proqramlarının qəbulu və uğurlu icrası qarşıya qoyulan hədəflərə nail olmaq üçün stimulverici amildir. Azərbaycanı qarşıdakı illərdə inkişaf etmiş ölkələr sırasında görmək istəyiriksə, kompleks tədbirlər mütləqdir. Bu fakt da hər kəsə məlumdur ki, bu gün Azərbaycan yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün əsas məkan kimi qəbul olunur. Belə ki, hazırkı dövrün əsas çağırışı olan yoxsulluqla mübarizə sahəsində dövlətimizin atdığı addımlar beynəlxalq səviyyədə təqdir olunmaqla yanaşı, Azərbaycan təcrübəsinin öyrənilməsinin vacibliyi bildirilir. Məhz bu baxımdan böyük inam və fəxr hissi ilə qeyd edirik ki, inkişafın Azərbacan modeli deyilən bir məfhum var və bu reallıq uğurlarımıza və davamlı inkişafa əsaslanır. Məhz bu təmələ əsaslanaraq, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiqlənmiş və uğurla icra edilir.

Dövlət başçısı İlham Əliyevin hər çıxışında vətəndaş amilinə verilən dəyər faktlar əsasında qeyd edilir. Reallıqların içərisində olan xalq bu diqqət və qayğını yüksək dəyərləndirir, gələcəyə böyük inamla addımlayır. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, bütün təşəbbüslər xalq tərəfindən dəstəklənir, onların dəstəyi əsasında gerçəkləşir, Azərbaycan hərtərəfli ikişaf etmiş ölkə kimi diqqət mərkəzində dayanır.

Dövlətimizin başçısı İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əsas diqqət göstərdiyi məsələlərdən biri məhz əhalinin sağlamlığına mənfi təsir göstərən keyfiyyətsiz dərmanlar və onların baha qiymətə satışı olmuşdur. "Həm ictimaiyyət bilsin, həm də ki, burada artıq bu məsələ uzun müddətdir müzakirə olunur, göstərişlər verilib. Bu da dərman preparatlarının bazarı ilə bağlı olan məsələdir. Əfsuslar olsun ki, uzun illər burada da çox xaotik vəziyyət müşahidə olunurdu. Qeyd etməliyəm ki, bu məsələ bir qədər diqqətdən kənarda qalmışdır. Çünki biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Hər şey bazar tərəfindən tənzimlənir və təklif, qiymət, tələbat - yəni, bütün bunlar iqtisadi mexanizmlərdir. Hesab edirdik ki, indi bazar hər şeyi tənzimləyir, alıcılıq qabiliyyəti var, qiymətlər var. Amma sonra məsələni dərindən təhlil edərkən gördük ki, burada çox böyük ədalətsizliklər var" söyləyən Prezident İlham Əliyev qiymətlərin süni şəkildə qaldırıldığını bildirmişdir. Müqayisəli təhlil əsasında bu fakt açıqlanmışdır ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda bəzi dərmanların qiymətləri bir neçə dəfə bahadır. İnsanlar məcbur olub bu dərmanları alırlar. Bir çox hallarda keyfiyyətsiz dərmanlar satılır. Bu məsələnin dərindən öyrənilməsinin vacibliyi diqqətə çatdırılmışdır. Təbii ki, hər bir məsələnin həlli birgə səylərin göstərilməsini bir zərurətə çevirir. Məsələ ilə əlaqədar İqtisadiyyat və Sənaye Nazirliyi, digər qurumlar, Səhiyyə Nazirliyi ciddi məşğul olmuşdur.

Bu məsələdə həkimlərin də məsuliyyətsizliyi və bəzi hallarda tamahkarlığı xüsusi qeyd edilməlidir. Dövlətimizin başçısı bildirmişdir: "Lazım olmayan reseptləri yazırlar. Resepti yazır, deyir ki, sən bu dərmanı filan yerdən almalısan. Hətta reseptlə satılmayan vitaminlərə də resept yazırlar. Bu, böyük bir biznes şəbəkəsidir. Bu biznes kimin hesabınadır? Adi insanın hesabına. Adi insan da məcbur olub gedir ona verilən reseptlə dərman alır. Heç bilmir nə alır. Sonra dərmanın ona kömək edib-etməməsi ilə əfsuslar olsun ki, heç kim maraqlanmır. Digər tərəfdən, dərmanlar var ki, müxtəlif ölkələrdə istehsal olunur. İnkişaf etmiş ölkələrdə onların qiyməti bahadır. O qədər də inkişaf etməmiş ölkələrdə o qiymət aşağıdır. Gedirlər ən ucuzunu, ən aşağı keyfiyyətlisini alırlar, gətirirlər, ən baha qiymətə satırlar. Bu, hələ məsələnin az bir hissəsidir. Mən burada bu barədə çox danışmaq istəmirəm. Ancaq bu sahədə çox ciddi pozuntular olub və var. Bu pozuntulara son qoyulmalıdır. Ona görə, indi bütün məsələ təhlil edilib. Artıq bir neçə aydan sonra tətbiq edilməyə başlayacaqdır. Hesab edirəm ki, sentyabr ayından gec olmayaraq bu məsələ artıq yeni müstəviyə qalxmalıdır. Həm şəffaflıq təmin ediləcək, hər bir vətəndaş biləcək ki, hansı dərmanı alır və hansı qiymətə alır. Qiymətlərin yuxarı səviyyəsi müəyyən ediləcək."

Dövlət başçısı İlham Əliyevin bu fikirləri ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Təbii ki, sağlamlıq inkişafa, tərəqqiyə yol açan mühüm amillərdəndir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində bölgələrdə müalicə-diaqnostika mərkəzlərinin tikilib istifadəyə verilməsi, dünya standartlarına cavab verən, müasir avdanlıqlarla təchiz olunmaları da əhalinin sağlamlığına verilən önəmdən qaynaqlanır. Atdığı hər bir addımı ilə hər kəsin Prezidenti olduğunu təsdiqləyən cənab İlham Əliyev insanların sağlamlığının qorunmasının, sosial rifahının yaxşılaşdırılmasının vacib amil olduğunu bir daha bu fikirləri ilə təsdiqləyir: "Hesab edirəm ki, biz sosial məsələləri müzakirə edərkən, əlbəttə, bu məsələlər sırf sosial xarakter daşıyır. Bu, mənəvi xarakter daşıyır. Dərman paltar, avtomobil deyil. Dərman insanların həyatıdır, onların sağlamlığıdır. Bu sahədə pozuntulara yol verən insanlar vicdansızdırlar. Başa düşürsünüz nə edirlər? İnsanlar nə etsinlər? Ona resept yazırlar, o da gedir alır. Nəyi alır, hansı keyfiyyətdədir? O, onu qəbul etməlidir, yoxsa yox? O haradan bilsin? Dərd burasındadır. Ona görə, bax, biz bu sosial və mənəvi pozuntuları aradan götürəcəyik."

Cənab İlham Əliyev bir daha bu əminliyi ifadə edir ki, görülən və görüləcək tədbirlər nəticəsində ilin sonuna qədər dərmanların qiymətləri kəskin şəkildə aşağı düşməlidir. İstəyirəm Azərbaycan ictimaiyyəti bunu bilsin. Bu məsələ də daim diqqət mərkəzində olacaq.

Dövlətimizin başçısı İlham Əliyevin bu kimi tapşırıqlarına uyğun olaraq Tarif Şurasının 25 avqust 2015-ci il tarixli "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə" Azərbaycan Respubilkası Tarif (qiymət) Şurasının 2015-ci il 30 iyul tarixli 5 nömrəli qərarında dəyişikliklər edilməsi və bununla bağlı əlavə tədbirlər haqqında qərarı bir daha əhalinin sosial müdafiəsinin gücləndirilməsinin dövlət siyasətinin əsas tərkib hissəsi olduğunu nümayiş etdirdi. Tarif Şurasının qərarında bildirilir ki, 2015-ci il 15 sentyabr tarixindən etibarən "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 30 iyul tarixli 5 nömrəli qərarına "Əlavə 1"-də göstərilən təsiredici maddələr (kombinə olunmuş dərman vasitələri istisna olmaqla) üzrə qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız həmin qiymətlər təsdiq edildikdən sonra həyata keçirilə bilər.

Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi təbii ki, sağlamlığın təminatı ilə yanaşı, iqtisadi duruma da öz müsbət təsirini göstərəcək. Bu kimi addımların davamlılığı şəksizdir. Dövlət vətəndaşlarının yüksək rifah şəraitində yaşamasında maraqlıdır. Məhz bu faktı da qeyd etmək istərdik ki, 2009-cu ildə ümumxalq səsverməsi yolu ilə Konstitusiyaya edilən əlavə və dəyişiklər sırasında "Dövlətin ali məqsədi" maddəsinə edilən əlavə xüsusilə diqqət çəkdi. Həmin əlavəyə əsasən, dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunması, layiqli həyat səviyyəsini təmin etməkdir.

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***